## RESPUBLİKANIN KİTABXANA FONDLARININ KOMPLEKTLƏŞDİRİLMƏSİNİN RİYAZİ ANALİZİ

**Hacı Qasımlı**
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının magistrantı*
Haci_qasimli@list.ru

***Respublikanın kitabxana fondlarının komplektləşdirilməsinin riyazi analizi***
***Xülasə:*** *Məqalədə komplektləşdirmənin əsas məzmunu və kitabxana fondunun komplektləşdirilməsinin elmi-nəzəri və təcrübi cəhətdən təhlili verilmiş, həmçinin müasir dövrdə respublika kitabxanalarında komplektləşdirmə prosesi zamanı mövcud olan çatışmazlıqları və ümumi problemləri nisbətən azaltmaq üçün bir neçə komplektləşdirmə prosesinə dair riyazi düsturlar qeyd olunmuşdur.*
***Математический анализ пополнения библиотечного фонда республики***
***Резюме:*** *В статье представлено основное содержание компиляции и научно-теоретического и практического анализа комплектации библиотечно-информационных предприятий, а также применение нескольких процессов комплементации для устранения существующих недостатков и общих проблем в современных библиотеках республики.*
***Mathematical analysis of library funds completion of the Republic***
***Abstract:*** *The article presents the main content of the compilation and the scientific-theoretical and practical analysis of library-information enterprises' complementation, as well as the application of several complementation processes to reduce the existing shortcomings and common problems in the modern libraries of the republic.*
***Açar sözlər:*** *kitabxana fondu, komplektləşdirmə, komplektləşdirmə nomenklaturası*
***Ключевые слова:*** *библиотечный фонд, составление, номенклатура упаковки.*
***Keywords:*** *library fund, compilation, completation nomenclature.*

**Giriş:** Respublikada müxtəlif tipə və növə malik olan kitabxana fondları mövcuddur ki, həmin kitabxana fondlarının komplektləşdirilməsi fərqli xarakter daşısa da onlar bir sıra ümumi cəhətlərə malikdir. Bura komplektləşdirmə metodologiyası, prinsipləri, onun elmi əsaslandırılması, komplektləşdirmənin növ və metodları daxildir. Komplekləşdirmə sözünün mənası latın dilində "completus" tam,ümumi cəmlənmə, nəyinsə tərkibi, artırılma məzmununu ifadə edir [1]. Dünya kitabxanaşünaslıq elmində bu sahə üzrə müəyyən tədqiqatlar aparılsa da bu prosesin dəqiq tərifi yoxdur. Ümumi qəbul edilmiş anlayışa görə komplektləşdirmə sistemli və planlı seçimdir, kitabxana fondları üçün yeni sənədlərin əldə edilməsidir. Digər yanaşmaya görə isə bu ikitərəfli prosesdir: kitabxanaya lazımi sənədlərin əldə olunması və eyni zamanda lazımsız və köhnəlmiş sənədlərin aradan qaldırılması prosesi hesab edilir. İkinci qeyd etdiyimiz tərif bilavasitə daha dəqiq və perspektivlidir, çünki komplektləşdirmə kitabxana fondunun sistem kimi yaranmasında və sənədlərin kompleks şəkildə fondda əks olunmasına yönəlir. Lakin kompleks o sənədlər toplusuna de-



yilir ki, hansında ancaq lazımi sənədlər var, və istifadəyə yararsız sənədlər çıxarılıb. Rus tədqiqatçısı Y.V.Qriqoryev öz tədiqatında qeyd edirdi ki, komplektləşdirmə təkcə fondun sənəd kütləsi ilə artırılması prosesi deyil, o həm də kitabxananın vəzifələrinə cavab verən səviyyədə fondun düzgün saxlanmasıdır. Kitabxananın vəzifələrinə fondan köhnəlmiş ədəbiyyatın çıxarılması aid edilir. Buna əsaslanaraq Y.V.Qriqoryev kitabxana fondu üçün ədəbiyyatın birinci (sənədləri fonda daxil etmək mərhələsi) və ikinci (sənədlərin fondan çıxarılması mərhələsi) seçim mərhələrini üçün müdəalar hazırlamışdır. Sənədlərin daxil olma və xaric edilməsi zamanı fond dinamik sistemə çevrilir və yeni sənədlərlə təchiz olunur. sənədlərin fonda daxil olmasını kitabxana üçün yeni bir proses olduğunu qəbul etmək olar, fonddan çıxarılma isə kitabxana fondunun tənzimləşdirilməsini və köhnə, öz əhəmiyyətini itirmiş sənədlərdən təmizlənməsi kimi başa düşülür.Nəticədə bu proseslər kompleks şəkildə kitabxana fondunun yenilənməsi prosesi həyata keçirir [5, s.47].

**Məsələnin izahı:** Məqalədə tədqiq olan mövzunun məzmununa əsasən qeyd edək ki, müasir dövrdə respublika kitabxanalarında komplektləşdirmə prosesi zamanı mövcud olan çatışmazlıqları və ümumi problemləri nisbətən azaltmaq üçün bir neçə komplektləşdirmə prosesinə dair riyazi düsturların tətbiq edilməsini məqsədəuyğun hal hesab edirik. Çünki əksər kitabxana-informasiya müəssisələrində komplekltəşdirmə prosesi adi qaydada, eyni bir prosedur üzrə, vahid forma əsasında həyata keçirilir. Lakin müxtəlif elm sahələrində olduğu kimi kitabxanaşünaslıq elmində də komplekltəşdirmə prosesinin ümumi nomenklaturasını təsvir etmək üçün komplektləşdirməni aşağıdakı riyazi düsturlatəsvir etmək olar:

$$F_k=F_0+F_{dt}-F_{xt}$$

Burada $F_k$- komplektləşdirmə prosesi həyata keçirildiyindən sonra fondun yeni vəziyyətini, $F_0$-komplektləşdirmə prosesinə qədər fondun ilkin vəziyyətini, $F_{dt}$- zaman vahidi ərzində fonda daxil olan sənədlərin miqdarı, $F_{xt}$- komplektləşdirmə prosesi zamanı fonddan çıxarılan sənədlərin miqdarını bildirir.

Bu düsturda $F_0$ və $F_k$ daim hərəkətdə olan kəmiyyətlərdir, mütəmadi olaraq $F_{dt}$ və $F_{xt}$ nisbətindən asılı olaraq müəyyən vaxtda dəyişir. Başqa sözlə, komplektləşmə kitabxana fondunun həcminin daim dəyişməsinə səbəb olur. Bu dəyişiklik daha aktiv fondlarda intensiv şəkildə depozitar fondlarda isə nisbətən zəif şəkildə həyata keçirilir. Yuxarıda qeyd etdiyimiz düstura əsasən nümunə qeyd edək.

M.F.Axundov adına Milli Kitabxana fondunda 1 yanvar 2018-ci il tarixinə qədər 34997 adda sənəd var idi. Yəni $F_0$=34997; 2019-cu il daxil olmaqla il ərzində fonda 486 adda sənəd daxil olmuşdur yəni, $F_{dt}$=486, fonddan isə 76 adda sənəd çıxarılmışdır yəni, $F_{xt}$=76. 1 yanvar 2019-cu il üçün kitabxana fo-

nundunun il ərzində aparılan komplektləşdirməsi nəticəsində dəyişikliyi aşağıdakı kimi olmuşdur:

$$F_k=34997+486-76=35413$$

Bu halda kitabxana fondu həcm baxımından artır. Beləliklə, ümumi izah etdiyimiz düsturdan da aydın oldu ki, kitabxana fondunun komplektləşdirilməsi kitabxanaya yeni sənədlərin qəbulu və köhnə lazımsız sənədlərin çıxarılması prosesidir. Bununla bağlı sual yaranır: hansı sənədləri lazımsız hesab etməliyik? Əgər onlar komplektləşdirmə yolu ilə kitabxana fondu üçün alınıbsa deməк ki, onlar lazımdır. Amma hər sənəddə əks olunan hər bir məlumat getdikcə köhnəlir, onu yenisi əvəz edir, kohnə məlumata kitabxana istifadəçilərinin marağı itir, və sənəd "olü ruh" kimi kitabxana rəflərində yerləşir, kitabxana işçilərinin işinə maneələr törədir, başqa sözlə, kitabxana informasiya müəssisələrində"informasiya səs-küyü" yaradır. Belə sənədi ya fonddan çıxarırlar, ya da əgər kitabxananın depozitar funksiyası varsa onda başqa bir saxlama səviyyəsinə köçürülür. Beləliklə, fondun komplektləşdirməsi əsasən onun keyfiyyətinə təsir edir, dəyərli məlumatlarla zənginləşdirir. Kitabxana fondunun əsas keyfiyyət göstəriciləri bir tərəfdən abunəçilər tərəfindən istifadə intensivliyidir: intensivlik nə qədər çox olsa, fond o qədər dəyərlidir, və əksinə; digər tərəfdən isə kitabxana fondunun abunəçilərin mənəvi zəngiləşməsinə təsiri, göstərilən xidmət sahəsinin müxtəlif tərəflərinin inkişafı ilə əlaqəardır. Hələki bu təsirin qiymətləndirmə üsulu işlənməmişdir, hansı ki xidmət göstərilən sahənin kitabxana fondunun vəziyyətindən asılı olaraq dəyişdirilməsiylə bağlı məlumat alına bilsin. Respublikada mövcud olan kitabxana fondları informasiya mərkəzidir, onların fəaliyyəti ancaq sabah üçün deyil, həm də abunəçilərin gələcəkdə yaranan informasiya tələbatlarını ödəmək üçün nəzərdə tutulub. Qeyd edək ki, kitabxana fondu-bəşəriyyətin yaddaşının deposudur, bu baxımdan onu gələcək fəaliyyət üçün dəyərləndirmək lazımdır. Bu səbəbdən,"Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanun" da qeyd olunduğu kimi: Kitabxana elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya vasitələrini toplayıb, mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialına xidmət göstərən sosial inistitut hesab edilir.

Kitabxana fondlarının qiymətləndirilməsini indiki zamanda dəyərləndirmək üçün keyfiyyət və kəmiyyət meyarları sistemi istifadə olunur. Onları bilmək kitabxanaşün alimlər, bu sahədə çalışan tədqiqatçılar üçün çox vacibdir, çünki onlar kitabxana fondunun vəziyyəti barədə informasiyaya malikdirlər və onun komplektləşdirməsinin təkmilləşdirilməsinə dair qərarlar verirlər.



**Kitabxana fondunu səciyyələndirən keyfiyyətli meyarlar**




Hər şeydən əvvəl kitabxana fondunun komplektləşdirilməsinin mahiyyəti ondan ibarətdir ki, onu yekun nəticədəonun modelinə uyğunlaşdırmaq, yəni

KF ▶◀FM

Bu uyğunluq nə qədər tam olsa bir o qədər fondtərkibinə, həcminə və keyfiyyətinə görəoptimaldır.UyğunluqFondun modelininsistematik kataloqun başlıqları, əvvəlcədən fond üçün sifariş oluncaq illik kartotekanın müqayisəsiylə müəyyən olunur. Belə sistematik müqayisəbütün pozuntuları vaxtında və operativ şəkildə müəyyən etməyə şərait yaradır.

Fondun aktuallığı dedikdə fondda abunəçilərə sosial, iqtisadi, təsərrüfat, elmi və digər tapşırıqları həll etmək üçün lazım olan məlumatların olmasından asılıdır. Fondun aktuallığı ondan yüksək məllumat tutumunu tələb edir, hansı ki, cari və reprospektiv xüsusi sorğuya əsasən məlumatın tamlığıyla müəyyənləşir (digər kitabxanalarınan koordinasiya əsasında). Əgər fondun hansısa hissəsi kitabxanada hərəkətsiz qalırsa (onun aktiv təbliğatına baxmayaraq), deməк ki, onun informasiya dəyəri 0-a bərabərdir, beləliklə, fondu yeniləmək lazımdır, bu hissəni isə digər saxlama səviyyələrinə keçirtmək lazımdırvə ya kitabxanadan çıxartmaq lazımdır. Bundan başqa digər tələb isə fondun etibarlılığı, daha doğrusu onun abunəçilərifasiləsiz xidmət etmək qabiliyyəti,mövzuya uyğun bütün sorğulara dəqiq hərtərəfli cavab vermək zəruridir. Fondun etibarlılığı – iqtisadi, mədəni vəsosialla yanaşı həm də psixoloji kateqoriyadır: məlu-

matın yarımçıqlığı və ya pis təşkil olunduğuna görə fonda qarşı abunəçilərdə inamsızlıq yaranır. Yüksək səviyyədə etibarlılıq isə oxu zallarının fondları üçün xarakterikdir, ən az isə abunə fondarı üçün, harda ki, ədəbiyyat evə verilir. Hazırda kitabaxanalararası abonementin köməyilə abunə fondlarının etibarlılığını artırmaq üçün, abunəçilər tərəfindən oxumaq üçün götürülən ədəbiyyatların tez qaytarılması üçün, kitabxanalararası avtomatlaşdırılmış sistemləri tətbiq etmək üçün hansı ki, abunəçilərə operativ şəkildə şərait yaradır informasiyalar əldə etsinlər, nüsxələri çıxartmaq üçün yollar axtarılır.

Kitabxana fondunun keyfiyyətli şəkildə təhlili üçün bilmək lazımdır ki, konkret hansı sənədləri oxucular istifadə edirdilər və necə istifadə edirdilər, hansı köməkliklər onlara edilib, elmi tədqiqatda, təhsildə, tərbiyyədə və s.Çox vaxt bu məqsədlə keyfiyyət analizi üsulundan istifadə edilir, hansı ki, informasiyanın seçilib yayılma sistemində formalaşmışdır. (İSY sistemi), kitabxananın abunəçilərlə düz və əks əlaqəsi: kitabla birgə abunəçilərə kart verilir (düz əlaqə) və oxucu bu mövqedən istifadə edərək öz rəyinibildirir (mövqelərin nömrələri qiyməti bildirir):

1-nüsxəsi lazımdır;
2- maraq kəsb etmir;
3- kitabda olan məlumat digər məbələrdən məlimdur;
4- maraq kəsb edir;
5- dəyərli. İşdə və həyatda istifadə olunacaq.

Kitabxanaçıdolduran kartlara əsasən (əks əlaqə) qiymətləri ümumiləşdirərək onun fond və altbölmələr üçün dəyərini müəyyən edir. Keyfiyyətli meyarlar fondun qiymətləndirilməsi üçün geniş şəkildə tətbiq olunur və kitabxanaçı üşün effektivdir. Eyni zamanda fondun istifadə prosesi onun komplektləşdirilmə keyfiyyətini müəyyən etmək üçün bir vasitədir. Beləliklə, fondun istifadəsi və komplektləşdirilməsi dialektik vəhdəd təşkil edir və kitabxana fəaliyyətinin optimallaşdırılması amili kimi çıxış edir.

Bu əlaqə daha aydın şəkildə özünü verilənləri tamamlayandavə dəqiqləşdiriləndə, hansı ki keyfiyyətli meyarların köməyilə kəmiyyət üsulu və kitabxana fondunun qiymətləndirmə keyfiyyətinin meyarıyla alınıb. Bilmək lazımdır ki, fondun keyfiyyətinin effektivliyi və dəqiqliyinin obyektivliyi onun tərkibinin və istifadəsinin müqaisəsilə o zaman mümkündür ki, kitabxana fondu oxucular üçün tam açıq olsun.

Məlumdur ki, kitabxana-informasiya müəssisələrində fondların formalaşma sisteminə aşağıdakı prosesləri daxil etmək məqsədəuyğun hal hesab edilir.

- ✓ Fondun modelləşdirilməsi;
- ✓ Fondun komplektləşdirilməsi;
- ✓ Fonda daxil olan və xari edilən sənədlərin uçotu;
- ✓ Sənədlərin xüsusi işlənməsi;
- ✓ Sənədlərin fondda yerləşdirilməsi;
- ✓ Kitabxana fondunun düzülüşü;
- ✓ Kitabxana fondunun qorunmasının təşkili;



- ✓ Kitabxana fondunun istifadə edilməsi;
- ✓ Kitabxana fondunun idarə edilməsi.

Yuxarıdakı qeyd etdiyimiz proseslərdən kitabxana fondunun idarəolunması başlıca yer tutur. İdarəetmə özündə: Kitabxana fondunun formalaşmasının və inkişafının idarə olunması (həcm, tematika, dolğunluqda və s. əks olunur); Kitabxana fondunun istifadəsinin idarəolunması (kitab verlişi, sorğu, rədd cavabı, uyğunluq indeksi, istinad, analiz və s. əks olunur). Beləliklə kitabxana fondunun idarəolunması onun formalaşması strategiyasının müəyyənləşdirilməsini, həmçinin onun inkişafı və istifadəsinə uçot və nəzarət olunmasını əks etdirir [3].

**Nəticə:** Müasir dövrdə resoublikada kitabxana fondlarının komplektləşdirilməsi isə bağlı bir sıra çatışmazlıqlar mövcuddur ki, bunlara aşağıdakıları aid etmək olar:

- ➤ Mövcud maliyyə problemləri;
- ➤ Kitabxana fondlarına daxil olan sənədlərin aparılması prosesi zamanı mövcud olan texnoloji problemlər;
- ➤ Komplektləşdirmə üsul və vasitələrinin, metodların konservativliyi;
- ➤ Kitabxanadaxili iş prosesinin qeyri-mükəmməlliyi;
- ➤ Milli depozitar mühafizə sisteminin dağılması;
- ➤ İri həcmli kitabxana fondlarında yeni daxilolmaların natamamlığı;
- ➤ Buraxılışa hazırlanan və yeni nəşr olunmuş ədəbiyyatlar haqqında tam və dolğun informasiyanın olmaması;
- ➤ Məcburi pulsuz nüsxələrdə boşluqların mövcudluğu və s.

**Ədəbiyyat**


1. Столяров, Ю.НБиблиотечные фонды: / М.: Книга, 2015. 264 с.
2. Столяров Ю.Н. Сто лет библиотечного фондоведения. // Научные и технические библиотеки .- 2001.- №6.- С 16-46
3. Жданова Т.А. Проблематика научных исследований в области формирования фондов библиотек: некоторые акценты // Научные и технические библиотеки 1999. № 6. С. 3-14
4. Шилов В.В., Эйдемиллер И.В., Тихонова О.В. и др. Проблемы формирования фондов на современном этапе // Библиотековедение. 1996.- № 3.- С.65-78.
5. Григорьев Ю.В. Теоретические основы формирования библиотечных фондов: Уч. пособие. М.: Книга, 1973. С. 47.


**Rəyçi: t.ü.e.dok., prof. X.İ.İsmayılov**